**UOT: 316.33.316.37**

# XVIII ƏSR QARABAĞ ƏDƏBİ MÜHİTİNİN NÜMAYƏNDƏSİ KƏRBƏLAYI ABDULLA CANININ YARADICILIĞI

***Əliyeva Aynurə Kamran qızı***
***AMEA Gəncə Bölməsi Humanitar Tədqiqatlar İnstitutu***
***yavernamazova@mail.ru***

**Xülasə:** *Məqalədə, XVIII əsr Qarabağ xanlığı və onun paytaxtı Şuşa-Pənahabad şəhərinin yaranması ilə Qarabağ ədəbi-mədəni mühiti haqqında və onun görkəmli nümayəndəsi Kərbalayı Abdulla Canı haqqında məlumat verilmişdir. Burada onun Azərbaycan klassik şer nümünələri təhlil olunmuşdur, eyni zamanda yaxın dostu şair Kərbəlayı Şəfi Valeh ilə baməzə deyişməsi göstərilmişdir. Məqalədə Abdulla Canı haqqında dövrünün mütəfəkkirləri olan Mir Möhsün Nəvvabın "Təzkireyi-Nəvvab", Firidun bəy Köçərlinin "Azərbaycan ədəbiyyatı" I cilddində, Məhəmməd ağa Müctəhidzadənin "Riyazül-aşiqin", Hüseyn Əfəndi Qayıbovun "Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir" əsərlərində "Abdullah" və "Qəmbər" təxəllüsü ilə yazan Abdulla Canı haqqında qeydlər verilmişdir.*

**Açar sözlər:** Qarabağ ədəbi-mədəni mühiti, Abdulla Canı, aşıq Valeh, deyişmə, klasik poeziya nümnunələri.

**Ключевые слова:** литературно-культурная среда Карабаха, Абдулла Джани, Ашуг Валех, беседы, образцы классической поэзии.

**Key words**: literary and cultural environment of Karabakh, Abdullah Jani, Ashug Valekh, talks, examples of classical poetry.

XVIII əsrdə Şuşa şəhərinin (Pənahabad) bünövrəsi qoyulandan sonra Qarabağ ədəbi mühiti Azərbaycan ədəbi-mədəni mühitinin ən qaynar mərkəzinə çevrilmişdir. Tarixçi Mirzə Yusif Qarabaği (1798-1864) türk törəməsi olan Pənahəli xanın bu möhtəşəm Şuşa şəhəri haqqında "Tarixi-Safi" adlı əsərində yazmışdır: "Şəhər cənub-qərbdən, şimal-şərqdən, həmçinin qərb və cənub tərəfdən gediş-gəliş mümkün olmayan möhkəm və təbii sıldırım qayalarla əhatə olunmuşdur" (1). Molla Pənah Vaqif, Qasım bəy Zakir, Xurşidbanı Natəvan, Mir Möhsün Nəvvab, Abdulla Canı, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Firudin bəy Köçərli, Əhməd bəy Ağaoğlu kimi şəxsiyyətlər Azərbaycan ədəbiyyatına bu şəhərdə öz tövhələrini vermişlər. Məhz bu dövrdə Qarabağda Molla Pənah Vaqif tərəfindən milli şeir məktəbinin əsasının qoyulmasına təsadüf edilir. Sonralar bu ənənə Qasım bəy Zakir tərəfindən inkişaf etdirilmişdir.

XVIII əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Abdulla Canıoğlu 1780-ci ildə Şuşada doğulmuşdur. Əsas məşğuliyyəti ticarət, kimyagərlik olan Abdulla Canıoğlu dövrünün qabaqcıl ziyalıları, şair və musiqiçiləri ilə yaxınlıq və dostluq etmişdir. Gözəl təbə malik olan şair həm klassik poeziya, həm də folklor üslubunda lirik və satirik şeirlər yazmışdır. O, xüsusilə də həcvçilikdə çox məşhur olmuşdur. Abdulla Canıoğlu 1838-ci ildə Şuşada vəfat eimişdir.

Kərbəlayı Abdulla Canı ibtidai təhsilini molla yanında almış daha sonra mədrəsədə oxumuşdu. Mir Möhsün Nəvvab, Məhəmməd ağa Müctəhidzadə, Firuddin bəy Köcərli öz əsərlərində Abdulla Canı haqqında məlumatlar vermişlər. Təzkirəçi Mir Möhsün Nəvvab yazır ki: "Kərbəlayı Abdulla Canı ilk təhsilini molla yanında mənimsəmiş və ondan sonra mədrəsədə oxumuşdur. Sahibi-mə`rifət və əhli-hal bir zat olduğu üçün ümumi-ə`yan və əşrafi-vilayət içrə əziz və möhtərəm tutularmış. Xoş xasiyyətli əxlaqı gözəl, təbii-şeriyyəsi rəvan və

səlis olan İbn Canı məclislər zinəti və məhfillər yaraşığı olmuşdur. Kərbəlayı Abdulla Səfiyyə ilə ailə qurmuşdu. Ağıllı adam olduğu üçün dövrünün ariflərindən hesab olunurdu. Bəzi elmlərlə maraqlanırdı və kimyanı məşq edirdi" (2).

Azərbaycanın görkəmli ədəbiyyatşünası, publisist, Azərbaycan ədəbiyyatının tarixi elminin banisi Firuddin bəy Köcərli 2 cildlik "Azərbaycan ədəbiyyatı" kitabında Abdulla Canı haqqında qeyd edir: "O, xoş əxlaqlı, gözəl xüsusiyyətli, dövrünün ariflərindən hesab olunan rəvan və səlis təbə malik ağıllı bir şəxs olduğu üçün vilayətin əksər əyan və əşrəfi ilə dostluq və yaxınlıq edərmiş. Bədahətən şeir deməkdə, xüsusilə, həcvguluqda tayı-bərabəri yox imiş. Onun bu məharətini müasiri Qasım bəy Zakir də şeirlərinin birində qeyd etmişdir. Abdulla Canıoğlu şeirlərini "Abdullah" və "Qənbər" təxəllüsləri ilə yazmışdır" (3).

Şairin irsi tam tədqiq olunmasa da, yaradıcılığının müəyyən bir hissəsi Firidun bəy Köçərlinin "Azərbaycan ədəbiyyatı" (I cild, 1978), Hüseyn Əfəndi Qayıbovun "Azərbaycanda məhşur olan şüəranın əşarına məcmuədir" (I cild, 1986), Mir Möhsün Nəvvabın "Təzkireyi-Nəvvab" (1998), Məhəmməd ağa Müctəhidzadənin "Riyazül- aşiqin" (1995), eləcə də AMEA ƏYİ-nin arxivində mühafizə olunan B-1987/3145, B-208/5356, B-1251/11238, D 288/7670, B-1987/3141, M 180/10501 şifrəli əlyazmalarında gəlib bizə çatmışdır.

Hüseyn Əfəndi Qayıbov "Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir" əsərində Abdulla Canı haqqında yazmışdır:

Bizim Abdullah vardır qələmi,
Onun daha indi gəlibdir dəmi,
Genə qoymaz o Gəncədə adəmi,
Əgər ki, sən bir işarət eylərsən.

Bu seirdə Hüseyn Əfəndi şair Abdullahın kəskin qələmini vəsf edir və qeyd edir ki, ona bir işarə yetər ki, bütün Gəncə əhalisi haqqında yazsın (4).

İstedadlı şair və ədəbiyyatşünas Məhəmmədağa Müctəhidzadənin (1867-1958) "Riyazül-aşiqin" təzkirəsi də XIX əsrin sonlarında Qarabağ ədəbi mühitində yaranmış, lakin əsər 1910-cu ildə İstanbulda nəşr olunmuşdur. XIX əsrdə yaranan bir sıra digər təzkirələr kimi bu əsər də 2 hissədən ibarətdir. I hissədə təzkirənin yarandığı dövrdə dünyasını dəyişmiş şairlərin yaradıcılığından bəhs olunmuşdur. II hissədə isə, əsərin yarandığı dövrdə həyatda olan şairlərin yaradıcılığı təqdim edilmişdir. "Riyazül-aşiqin" təzkirəsində Qarabağda yaşayıb-yaratmış yetmiş doqquz şairin qısa bioqrafiyası və əsərlərindən nümunələr verilmişdir. Bu şairlərin arasında Abdulla Canıoğlunun yaradıcılığına da yer verilmişdir. Məhəmmədağa Müctəhidzadə Abdulla Canının bir necə qəzəlini və Aşıq Valehə yazdığı serini kitaba salmışdır. O, şair haqqında bunları qeyd etmişdir: "Bu arifi-alimiqdar sersəralıqda sükna etdiyimiz diyari-behişt-asarda olan şüəraların mabeyində əvvəlinci hesab olunur. Hansı ki, əfkari-əbkarından məlum və aşikardır, müəzzəməleyh sahibi-mərifət olmagına görə ümumiyi-əyan və əşrəfi-vilayət icrə binnəhayət əziz və möhtərəm imiş". Əsərdən belə aydın olur ki, yazar şair haqqında yüksək fikirdə olmuş, onu hətta birinci hesab etmişdir (5).

Kərbəlayı Abdulla Canızadə ilə Kərbalayı Şəfi Valeh arasında möhkəm dost münasibətləri olmuşdur. Onlar bir-birinə zarafat və lətifə yolu ilə baməzə şeirlər yazmışlar. Firuddin bəy Köçərli yazirdı ki, Kərbəlayı Şəfi "Valeh" Canıoğlu Kərbəlayı Abdullanın və Baba bəyin müasiri imiş. O zamanın ürəfasından sayılan əhli-zövq və sahibi-təb bir vücud imiş. Məhəlli-təvəllüdü Gülablı qəryəsidir ki, ata-babasının əsl vətənidir. Gülablı kəndi Şuşa uyezdində dağ ətəyində basəfa və xoş mənzərəli bir yerdə inşa olunmuşdur. Əhalisi sələmət, əhli-keyfü damağ olub, günlərini eyşü-işrətdə keçirməyə mötad olmuşlar. Qarabağın aşıqları, neyçi və balabançıları, xanəndə və nəvazəndələri əksəriyyən Gülablıdan çıxıb, onun abu

həvası ilə pərvəriş tapmışlar. Həmin bu Gülablı qəryəsində hicrətin XII əsrinin axırlarında, yəni 1180-cı il və ehtimal ki 1190-cı illərdə Valeh təvəllüd etmişdir. 60-70 iləcən ömür etmişdir. Belə ki, 1250-ci il tarixinədək hali-həyatda imiş. Oxuyub-yazmağı Şuşa qalasında kəsb etmişdir. Ülumi-maarifə və xüsusən, şer deməyə artıq dərəcədə meylü həvəsi var imiş. O cəhətdən vaxtının çoxunu ürəfa məclisində və şüəra dairəsində keçirərmiş. Mərhum Valeh dindar, mömin və müttəqi bir şəxs olduğu ilə belə xoşsöhbət, danışıb-gülən və baməzə bir adam imiş.

Kərbəlayı Abdulla Canızadə Kərbəlayı Şəfi Valeh də "Cavabi Valeh" şeirini göndərir:

Ey Səfi, Şah Nəcəf kuyi sənə məskən ikən,
Niyə ol rövzəni tərk etdin, əgər adam idin?!
Cün kimi olmadı yarın səri-kuyində yerin,
Sən məgər əhli-vəfa bəzminə naməhrəm idin?!
Süst rə`yin səni məhrumi-vüsal etməz idin,
Rəhi-eşq içrə əgər sabitü müstəhkəm idin.
Qürbi-övladi-Əlidir səbəbi-rəhməti-həq.
Sən ki, mənidə məgər cahili-layələm idin?!
Kəhfin əshabını tərk etmədi səğ bir saət,
Sən ki, insan idin, əhməq, məgər itdən kəm idin?!
Adəm olsaydın əgər şövq ilə ta şamü səhər.
Yar kuyində sədaqətlə gəzən həmdəm idin.
Müstəqim olsa idi eşq ilə təbin daim.
Həlqə tək dərgəhi-mövladə bəsi möhkəm idin,
Dəsti-ixlas ilə canan ətəyin tutsa idin,
Şərəfi-rütbədə sultani-qamu aləm idin
Qənbəra,Valeh mən etmə ki, bəs biqəmdir
Sən dəxi cahil əgər olsa idin, biqəm idin.

Kərbəlayı Şəfi Valeh də "Cavabi Valeh" şeirini dostu Kərbəlayı Abdulla Canızadəyə cavab olaraq yazmışdır.

Yuxarıdakı parçadan məlum olur ki, Kərbəlayı Abdulla Canızadə Qurani-Kərimi və hədisləri mükəmməl bilmiş və onlardan öz şeirlərində geniş istifadə etmişdir. Şair burada Adəmin Cənnətdən qovulması məsələsinə xüsusi diqqət yetirməklə göstərir ki, Həzrət Əli (ə.s) və onun övladlarının yolu haqqın yoludur.

Burada daha bir məqam xatırlanır. O da "Qurani-Kərim"in "Əl-Kəhf" surəsi ilə bağlıdır. Zalım Diqyanusun zülmündən təngə gələn mağara əhli ilə birgə onların iti də mağarada gizlənir və onları tərk etmir. Şeirdən çıxan nəticə budur ki, insan sidq ürəklə Tanrının ətəyindən tutarsa, onun qədr-qiyməti artar (3).

Abdulla Canı yardıcılığında klasik poeziya nümnunələri: muxəmməslər, qəzəllər də öz yerini tapmışdır. Onun həzin və lirik sətirləri şairin həssas və duyğusal insan olduğuna dəlalət verir:

Verdim əgərçi türreyi-tərrarə könlümü,
Etdim düçar gör necə şəhmarə könlümü.

Ey şanə, mubəmu ara hər tari-zülfünü,
Gör kim çəkibdi harda mənim darə könlümü? (4).

XVIII əsrdə isə Qarabağ xanlığının və onun paytaxtı Şuşa-Pənahabad şəhərinin yaranması ilə Qarabağ ədəbi-mədəni mühiti, demək olar ki, çiçəklənmə, intibah mərhələsinə

daxil olmuşdur. Məhz bu dövrdə Abdulla Canı yaşayıb yaratmışdır və şübhəsiz ki, bu mühit şairin yaradıcılığına böyük təsir etmişdir.

***Ədəbiyyat***


1.M. Adıgözəl, M.C.Cavanşir, Ə. Cavanşir. Qarabağnamələr, Şərq-Qərb, Bakı, 2006.
2.Mir Möhsün Nəvvab "Təzkireyi-Nəvvab", Bakı, 1998
3.Firidun bəy Köçərlinin "Azərbaycan ədəbiyyatı" I cild, Bakı , 1978
4.Hüseyn Əfəndi Qayıbovun "Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir" , I cild, Bakı, 1986
5.Məhəmməd ağa Müctəhidzadənin "Riyazül- aşiqin" , Bakı, 1995
6.Qurban Bayramov “Qarabağ-Şuşa ədəbi-mədəni mühiti – uzaq keçmişdən bu günümüzə qədər”, Azərbaycan dili və ədəbiyyatı tədrisi, 2021, № 2 (268), 121-1351
7.M.İ.Əmrahov, Ə.Çingizoğlu, H.İ.Həsənov. Qarabağ Xanlığı, Bakı, -Mütəricim 2008


## ТВОРЧЕСТВО КЕРБАЛАЯ АБДУЛЛЫ ДЖАНИ, ПРЕДСТАВИТЕЛЯ КАРАБАХСКОЙ ЛИТЕРАТУРНОЙ СРЕДЫ XVIII ВЕКА

***Алиева Айнура Камран кызы***

***Резюме***

В статье с образованием в XVIII веке Карабахского ханства и его столицы Шуша-Панахабад, представлены сведения о литературной и культурной среде Карабаха и достойного представителя этой среды - Кербалаи Абдулла Джани. Здесь анализируются его образцы азербайджанской классической поэзии, и в то же время показаны его переписки с близким другом, поэтом Кербелаем Шафи Валехом. В книге «Тазкиреи-наваб» мыслителя своего времени Мир Мохсун Наввабa, «Азербайджанская литература» Фиридун бека Кочарли, «Риязул-Ашигин» Мухаммад-аги Муджтахидзаде, произведениях Гусейна Эфенди Гаибова «Сборник популярных в Азербайджане лозунгов» даны сведения об Абдулле Джани, пишущем под псевдонимом «Абдуллах» и «Гамбар».

## CREATION OF KERBALAI ABDULLA DJANI, REPRESENTATIVE OF THE KARABAKH LITERARY ENVIRONMENT OF THE 18TH CENTURY

***Aliyeva Aynura Kamran***

***Summary***

In the article regarding the formation of the Karabakh Khanate and its capital Shusha-Panahabad in the 18th century, information is presented about the literary and cultural environment of Karabakh and a worthy representative of this environment - Karbalai Abdullah Jani. Here, his samples of Azerbaijani classical poetry are analyzed, and at the same time, his correspondence with his close friend, the poet Karbel Shafi Valekh, is shown. In the book "Tazkirei-navab" by the thinker of his time, Mir Mohsun Navvab, "Azerbaijan literature" by Firidun bek Kocharli, "Riyazul-Ashigin" by Muhammad-aga Mujtahidzade, "Collection of slogans popular in Azerbaijan" by Husein Efendi Gaibov, there is information about Abdullah Jani, who writes under the pseudonym "Abdullah" and "Ghambar".

***Rəyçi: filologiya üzrə fəlsəfə doktoru Ruziyə Quliyeva***
***AMEA Gəncə Bölməsi Ədəbiyyat şöbəsinin 08.08.2022-ci il tarixli iclasın №14 protokolu.***
***Daxil olma tarixi 05.09.2022-cu il***